8 Mart—tarixi prosesin başlanğıcı

159 il əvvəl amerikalı qadınlar sosial tələblərlə tətilə çıxanda heç təsəvvürlərinə də gətirməzdilər ki, əslində onlar tarixi bir prosesin başlanğıcını qoyurlar. 1857-ci il mart ayının 8-də isə Nyu-Yorkda tikiş fabrikində çalışan yüzlərlə qadın aşağı maaşa, iş saatının çox olmasına etiraz olaraq tətil etdilər. 1908-ci ildə də 15 min qadın Nyu-Yorkda iş saatının azaldılması, əməkhaqqının artırılması və səsvermə hüququ əldə etmək üçün nümayiş keçirdilər. Bu nümayişdə ilk dəfə olaraq analıq məzuniyyəti də tələb edən qadınların şüarı «Çörək və gül» idi. Çörək həyat eşqini, toxluğu, gül isə daha rifah həyat tərzini ifadə edirdi. Növbəti ildə Amerika Sosialist Partiyası fevralın sonuncu bazar gününü Milli qadın Günü elan etdi. 1910-cu ildə qadınların Kopenhagendə keçirilmiş beynəlxalq konfransında Klara Setkinin təşəbbüsü ilə Nyu-York hadisələrini yad etmək məqsədilə 8 Martın Beynəlxalq Qadınlar Günü kimi qeyd edilməsi qərara alındı. O vaxtdan etibarən dünyanın bir sıra ölkələrində 8 Mart—Beynəlxalq Qadınlar Günü kimi bayram edilir. Azərbaycan Respublikasında da 8 Mart—Beynəlxalq Qadınlar Günü kimi qeyd olunur. Həmin gün qeyri-iş günüdür.

Kopenhagen qərarından sonra ilk dəfə olaraq 1911-ci ildə Avstriya, Danimarka, Almaniya və İsveçrədə də bu bayram qeyd edildi. 1917-ci ilin martın 8-də çar Rusiyasında da qadınlar, ağır həyat tərzinə qarşı «çörək və sülh» adlı nümayiş keçirdilər. Tədricən 8 mart digər Avropa ölkələrində də qeyd edilməyə başlandı. BMT-də isə ilk dəfə olaraq 1975-ci ildə martın 8-i Beynəlxalq Qadınlar Günü kimi keçirildi. İki il sonra isə BMT-nin sessiyasında 8 mart Qadın Hüquqları və Beynəlxalq Sülh Günü olaraq qəbul edildi.

İlk dəfə seçki hüququ qazanan ingilis qadınları oldular. XX əsrin 20-ci illərinin əvvəllərində ABŞ-da da analoji qanunlar qəbul edildi. Qeyd olunmalıdır ki, bundan daha əvvəl, 1918-ci ildə Azərbaycan Xalq Cümhuriyyəti hökuməti qadınlara kişilərlə bərabər hüquqlar elan etmişdi.

Digər ölkələrdə olduğu kimi 8 Mart—Beynəlxalq Qadınlar Günü Azərbaycanda da yüksək səviyyədə keçirilir. Müasir dövrdə Azərbaycan qadını inkişaf etmiş sivil ölkələrin qadınlarından heç nə ilə geridə qalmır. Ümummilli lider Heydər Əliyevin xalqın təkidli tələbi ilə ölkə rəhbərliyinə qayıdışından sonra Azərbaycanda qadın layiq olduğu mövqeyə yüksəlmişdir.

Ulu öndər Heydər Əliyevin əsasını qoyduğu siyasi kursu Prezident İlham Əliyev layiqincə davam etdirir. Həyata keçirilən uğurlu gender siyasəti nəticəsində ölkəmizdə qadınlarla kişilərin hüquq bərabərliyi təmin olunmuş, bütün dövlət strukturlarında qadınların dövlət idarəçiliyində rolunun artırılması istiqamətində ciddi addımlar atılmışdır.

«Qəbələ».

Müalicə-diaqnostika mərkəzində 8 Mart Beynəlxalq Qadınlar Günü ilə əlaqədar tədbir

Rayon müalicə-diaqnostika mərkəzində 8 Mart Beynəlxalq Qadınlar Günü ilə əlaqədar tədbir keçirilmişdir. Tədbirdə rayon icra hakimiyyətinin məsul işçisi Tural Bağırov iştirak etmişdir. Tədbiri giriş sözü ilə müalicə-diaqnostika mərkəzinin baş həkimi Ceyhun Əhmədov açmış və mərkəzin bütün qadınlarını bu şərəfli bayram münasibətilə təbrik etmişdir.

Yığıncaqda baş həkimin müavini Kamal Məmmədov çıxış edərək tarixən Azərbaycan qadınlarının kişilərlə bərabər hüquqlara malik olmasından danışmış, bu gün də Azərbaycan qadınının azadlığı və hüquq bərabərliyini, qadınlarımızın ən mühüm sahələrdə kişilərlə bərabər işlədiyini, cəmiyyətin inkişafında onların da aparıcı rol oynadığını xüsusi qeyd etmişdir.

Tədbirdə tibb bacısı Gövhər Məmmədzadə Cəfər Cabbarlının ana şeirini söyləmişdir.

Həkim Şəhla Məlikova çıxış edərək başda cənab Prezident İlham Əliyev olmaqla müstəqil dövlətimizin qadınlara göstərdiyi qayğılardan danışmış, dövlətimizin başçısına, rayon rəhbərliyinə və müalicə-diaqnostika mərkəzinin rəhbərliyinə qadınlar adından təşəkkürünü və minnədarlığını bildirmişdir.

Sonda bütün qadınlara tər güllər təqdim edilmiş, müalicə-diaqnostika mərkəzinin rəhbərliyi adından fəallara fəxri fərmanlar və qiymətli hədiyyələr təqdim olunmuşdur.

Nadir ATAKİŞİYEV.
Foto S, Umuyevindir.

Ermənilərin törətdiyi qırğınlar dünyanı dolaşır

Keçmiş SSRİ rəhbərliyinin ötən əsrin 90-cı illərinin sonunda apardığı dövlət siyasəti və milli məsələlərdə yol verdiyi səhvlər həmişə separatçılığa meyilli olan ermənilərin Dağlıq Qarabağda fəallaşmasına səbəb oldu. Moskvadakı və xaricdəki havadarlarının gücünə arxalanan ermənilər artıq açıq şəkildə siyasi çağırışlar, mitinqlər təşkil edir, Azərbaycana qarşı ərazi iddiaları irəli sürürdülər.

1828-ci ildə çar Rusiyasının siyasətinə uyğun və məqsədli şəkildə İran və Türkiyədən Azərbaycan ərazisinə köçürülən, 1978-ci ildə Dağlıq Qarabağa gəlmələrinin 150 illiyini qeyd edən ermənilər sonradan tamamilə əks mövqedə durdular. Dağlıq Qarabağın Ermənistana birləşdirilməsi və yaxud da müstəqil olması tələbini irəli sürdülər. Həmin dövrdə 1988-ci ildə Azərbaycana rəhbərlik edən şəxslərin də yarıtmaz, müti idarəçilik siyasəti separatçı ermənilərə öz məqsədlərinə çatmaq üçün şərait yaratdı.

Erməni terrorçularının Dağlıq Qarabağda törətdiyi əməllər içərisində «Mi-8» vertdolyotunun vurulması da xüsusi qeyd olunmalıdır. İçərisində mülki şəxslərin, o cümlədən Azərbaycanın yüksək vəzifəli nümayəndələrinin, eləcə də Rusiya və Qazağıstandan olan yüksək vəzifəli nümayəndələrin Qarakənd səmasında vurulması SSRİ rəhbərliyinin qeyri-obyektiv idarəçiliyi və erməni xislətinin göstəricisi idi.

Qarabağda baş verən hadisələr və onlara münasibət o dövrdə KİV-də (kütləvi informasiya vasitələri) öz əksini tapırdı. Hadisələrin ilk vaxtlarında rəsmi mətbuat, televiziya və radio nisbətən barışdırıcı mövqe tutsa da, sonradan vəziyyət dəyişdi: çünki Azərbaycan ziyalıları o cümlədən KİV baş verən hadisələrin qarşısının alınacağını güman edirdilər. O zaman mətbuatda dərc olunan yazılar bu fikri təsdiqləyir. Kommunist qəzetində «Qarabağa el yardımı», «Sağlam qüvvələri birləşdirək» sərlövhəli materiallara rast gəlmək olurdusa, sonradan «Topxana harayı», «Erməni separatizmi» və bu mövzulu yazılar çoxluq təşkil edirdi.

Ermənilərin 1988-ci ildə başladığı etnik təmizləmə və soyqırımı siyasətinin növbəti mərhələsi Xocalı faciəsi oldu. Dünyanın ən dəhşətli faciələrindən biri olan Xocalı soyqırımından 24 il keçir. 1992-ci il fevralın 25-dən 26-na keçən gecə keçmiş SSRİ-nin 366-cı motoatıcı hərbi alayının köməyi ilə Xocalıya beş istiqamətdən hücüm edən ermənilər 7000 nəfər əhalisi olan şəhəri yerlə yeksan etdilər. Adi ov tüfəngləri əllərindən alınmış əliyalın dinc əhaliyə amansız divan tutdu. 613 nəfər şəhid oldu, 487 nəfər əbədi şikəstlik əzabına düçar edildi. 1275 sakin əsir götürülərək ağlasığmaz erməni zülmünə, təhqir və işgəncələrə məruz qaldılar. Onlardan 150 nəfərin taleyi hələ də naməlumdur. Erməni vandallarının Dağlıq Qarabağda və onun ətrafında törətdikləri vəhşiliklər ölkə mətbuatı ilə yanaşı xarici KİV-in də biganə qalmadığı məsələdir. Respublikanın KİV-ləri ilə bərabər Fransanın «Valer aktueal» jurnalı, Böyük Britaniyanın «Sande times» qəzeti», Rusiyanın «İzvestiya» qəzeti ermənilərin Xocalıya hücumu və törətdikləri qətliamla bağlı məlumat çatdırmışlar.

Qısa zaman kəsiyində bu hadisə haqqında xəbər tədricən bütün yer kürəsinə yayıldı. Azərbaycan ABŞ, Rusiya, Fransa, Böyük Britaniya və digər ölkə jurnalistlərinin cəsarət və mərdliyi sayəsində hadisələr olduğu kimi lentə alınıb dünyanın əksər televiziya kanallarında nümayiş etdirildi.

Xocalı faciələri baş verəndən bir neçə gün sonra, şahidi olduğu dəhşətli hadisələri dünyaya çatdıran ilk qələm sahibi Amerika jurnalisti Tomas Qolts oldu. O, ABŞ-da kütləvi tirajla nəşr etdirdiyi «Azərbaycan gündəliyi» adlı kitabında Xocalı faciələrinin başvermə səbəbləri və onların törədiciləri olan erməni faşizminin son iki əsrdə Azərbaycan xalqının başına gətirdiyi ağlasığmaz müsibətlər barədə dünya oxucularına geniş məlumat verməyə nail oldu.

(Ardı 6-cı səhifədə).